**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ İCTİMAİ-SİYASİ HƏYATI (2016-2020-Cİ İLLƏR)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Şamilova Aysel Məhəmməd qızı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Tarix və coğrafiya fakültəsinin "Azərbaycan və Şərqi Avropa xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: tarix üzrə elmlər doktoru, professor
**Baxşəliyev Adil Baxşəli oğlu**

Rəsmi opponentlər: tarix üzrə elmlər doktoru, professor
**İsmayıl Məhəmməd oğlu Məmmədov**

tarix üzrə elmlər doktoru, dosent
**Nazim Rəhbər oğlu Məmmədov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Afaq Yusif qızı Piriyeva**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ______________ tarix üzrə elmlər doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: ______________ tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: ______________ tarix üzrə elmlər doktoru, professor
**Fazil Eynulla oğlu Baxşəliyev**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** 1993-cü ildən indiyədək Azərbaycanda demokratik dəyərlərin gücləndirilməsi, vətəndaşlarda cəmiyyət daxilində azadlıq hissinin təmin edilməsi, onların hüquq və azadlıqlarının qorunması üçün bütün zəruri tədbirlər görülmüş və bundan sonra da görüləcəkdir. Hazırda Azərbaycan bir çox milli-dini mədəniyyətlərin birgə mövcud olduğu, hüquqi dövlət anlayışının reallaşdığı, fərdi, vətəndaş və sosial qarşılıqlı əlaqələrin demokratik prinsiplər üzərində qurulduğu tolerant dövlətdir.

Cəmiyyətimizin təkamülünün bu mərhələsində sosial həyatın bütün sahələrində baş verən köklü dəyişikliklər və siyasi fəaliyyət bunları nəzərə almağı tələb edir. Sosial siyasətin əsas məqsədlərindən biri də yeni demokratik siyasi sistemin yaradılmasında milli prioritetlərə nail olmaq, vətəndaş cəmiyyətinin tələb və maraqlarının optimal və əsaslı şəkildə yerinə yetirilməsidir.

2003-cü ildən başlayaraq, xüsusi ilə də 2016-2020-ci illərdə Azərbaycan Respublikasının ictimai-siyasi həyatının gedişində baş verənlərin əsas nəticələrindən biri demokratik dəyərlərin təminatı, vətəndaş cəmiyyətinin və hüquqi dövlətin qurulmasıdır.

Məhz bu qeyd etdiklərimiz 2016-2020-ci illərdə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş vermiş bütün proseslərin hərtərəfli öyrənilməsini tələb edir, eləcə də vətəndaş cəmiyyətinin formalaşması ilə bağlı siyasətinin həyata keçirilməsi mexanizmlərinin kompleks olaraq araşdırılmasını aktuallaşdırır. Bu kontekstdə dissertasiya mövzusunun aktuallığını və tədqiqinin zəruriliyini aşağıdakı müddəalarla ifadə etmək olar:

- ✓ İlk növbədə, vətəndaş cəmiyyətinin hazırkı qloballaşan dünyada baş verən müxtəlif xüsusi hadisələr ətrafında ictimai rəyi necə təkmilləşdirdiyini və formalaşdırdığını, onları siyasi gündəmin zirvəsinə qaldırdığını qiymətləndirmək getdikcə daha vacibdir;
- ✓ Tədqiqat illərində dövlət və vətəndaş cəmiyyəti münasibətlərinə nəzarət probleminin hərtərəfli və dərin təhlilinin aparılması mühüm əhəmiyyət kəsb edir;
- ✓ siyasi partiyaların və institutların vətəndaş cəmiyyəti ilə əlaqələri

və qarşılıqlı əlaqəsi mövcud problemin elmi əsaslarla öyrənilməsinə ciddi tələbat yaradır;

- ✓ gender bərabərliyi ilə bağlı problemlərin öyrənilməsinə marağın artmış və vətəndaş cəmiyyətini təşkil edən ən fəal qruplardan biri kimi qadınların dövlət idarəetmə strukturlarında rolunun fəallıq dərəcəsi yüksəlmişdir;
- ✓ Tədqiqatı aktual edən digər məsələ isə budur ki, 2003-cü ildən başlayaraq Azərbaycanda yeni, dinamik siyasi və iqtisadi sistem qurulmuş, sivil cəmiyyətin qurulması istiqamətində uğurlu irəliləyiş əldə edilmiş, respublikamızın sabit, dayanıqlı inkişafı üçün əlverişli şərait yaradılmış və vətəndaş həmrəyliyi təşviq edilmişdir;
- ✓ Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması və inkişafı üçün əlverişli şərait var. Cəmiyyətin inkişafının və yeni, konstruktiv ictimai-siyasi transformasiyalar prosesinin uğurla və səmərəli başa çatmasının əsas elementlərindən biri də cəmiyyətimizdə sosial həyatın bütün sahələrinə gənclərin cəlb olunmasının genişlənməsidir;
- ✓ Ölkənin beynəlxalq münasibətlərdə nüfuzunun artırılması, imicinin formalaşdırılması və QHT-lərlə işləməkdə Prezident İlham Əliyevin özünəməxsus yanaşmasını elmi və praktiki baxımdan araşdırmaq vacibdir. Tədqiqatın əhəmiyyəti həm də bundadır ki, İkinci Qarabağ müharibəsi ilə mövqelərində əhəmiyyətli dəyişikliklərin baş verməsi, xüsusi ilə də xalq-iqtidar birliyinin möhkəmlənməsini nümayiş etdirən məqamların araşdırılması xüsusi aktuallıq kəsb edir.

Odur ki, təqdim olunan dissertasiyanı Azərbaycan tarixində mövcud boşluğu doldurmaq üçün atılmış vacib addım kimi qiymətləndirmək olar. Ümumiyyətlə, yuxarıda qeyd olunan müddəalardan görünür ki, indiki şəraitdə tarix və digər siyasi elmlər qarşısında duran aktual problemlərin digər ölkələrin təcrübəsi ilə həm nəzəri cəhətdən, həm də siyasi təcrübə baxımından müqayisəsi xüsusi aktuallıq kəsb edir. Bu baxımdan məzmunu və səmərəli nəticələrinin təhlilinə əsaslanan ciddi araşdırmaların aparılması, əldə edilmiş qənaətlər və nəticələr əsasında təklif və tövsiyələrin verilməsinin vacib olduğu problemlərdən biri də tədqiqatın əhatə etdiyi illərdə Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin formalaşmasına təsir göstərmiş ictimai-siyasi proseslərdir.

Tədqiqatın mövzusunun araşdırılmasında bir çox tədqiqat əsərlərindən və müxtəlif səpkili yazılardan istifadə edilmişdir. İlk öncə "Müstəqilliyimiz əbədidir" çoxcildliyini xüsusi qeyd etmək istərdik. Kitab Ümummilli lider Heydər Əliyevin müraciətləri, bəyanatları, müsahibələri və çıxışlarından ibarətdir.[1]

Bununla yanaşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda demokratik rejimin bərqərar olması və vətəndaş cəmiyyəti institutlarının yüksəlişi ilə bağlı söylədiyi nitqlər, dərc olunan materiallar, xüsusilə də "İnkişaf məqsədimizdir" nəşri geniş təhlil obyekti olmuşdur.[2]

Tədqiqatın xronoloji çərçivəsinin 2016-2020-ci illər seçilməsi də təsadüfi olmamışdır. 2003-cü ildən başlayaraq Azərbaycan dövlətçiliyinin inkişafında yeni intibah dövrünün başlanması ilə əlaqədar ictimai – siyasi proseslərin məzmunu və nəticələri olduqca ürəkaçan olmaqla bərabər, məhz tədqiq etdiyimiz illər bu baxımdan xüsusi ilə yaddaqalan olmuşdur.

Hüquqi islahatların daha da genişlənməsi, Əsas qanuna əlavələr və düzəlişlər edilməsini nəzərdə tutan Referendumun, proqnozlaşdırılan müsbət nəticələrlə başa çatması, yeni parlament seçkiləri bu müsbət dəyişiklik və yeniliklərin yalnız bir qismidir.

Bu qeyd edilənlər tədqiqat mövzusunun təsadüfi olmadığını və cəmiyyət həyatının inkişafının növbəti mərhələlərinin əsas istiqamətlərinin seçilməsinin zəruriliyindən irəli gəldiyini göstərir.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə tədqiqat mövzusu seçilmiş illər baxımından yenidir və əvvəlki illərlə müqayidə işlənmə dərəcəsi haqqında ətraflı bəhs edilməsi mümkün deyil.

Son vaxtlar Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş vermiş bütün proseslərin əsas yekunları, xüsusi ilə də onlardan biri olaraq vətəndaş cəmiyyətinin formalaşması və inkişafı məsələləri bəzi tədqiqatlarda yalnız müəyyən qədər araşdırılmışdır.

Bu baxımdan Ş.Bağırovun son bir neçə ildə tədqiqat mövzumuza yaxın bəzi cari məsələlərin araşdırılması ilə əsərlərini qeyd etmək olar.

---

[1] Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. 46 kitabda /H. Əliyev. -Bakı: Azərnəşr, - 1997-2012.

[2] Əliyev İlham. İnkişaf məqsədimizdir. 138 kitabda / İlham Əliyev. Bakı: Azərnəşr, - 2008 - 2024.

Müəllif vətəndaş cəmiyyətinin xüsusiyyətləri ilə bağlı araşdırmalar apararaq vətəndaş cəmiyyəti nəzəriyyəsinin Qərb anlayışı olduğunu vurğulamışdır. Ş.Bağırovun “Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri” [3] kitabı Avropa dövlətləri ilə bağlı tarixi reallıqları nəzərdən keçirmək baxımından diqqətəlayiqdir. Əsər bizim tədqiqat illərimizdən əvvələ aid olsa da, vətəndaş cəmiyyətinin inkişafını öyrənmək mühüm vasitədir.

İ.Məmmədzadə “Vətəndaş cəmiyyəti və milli ideologiya: Azərbaycanda siyasi prosesin fəlsəfəsi” [4] adlı əsərində vətəndaş cəmiyyəti anlayışlarına müqayisəli perspektiv təqdim etmişdir. Onun vətəndaş cəmiyyəti, siyasi rejimlər, xüsusi ilə də postsovet məkanında baş verən dəyişikliklərlə bağlı araşdırmalar xüsusilə diqqətəlayiqdir.

A.Mirzəzadənin “Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşmasının xüsusiyyətləri” mövzusunda araşdırması bir sıra mühüm məsələləri əhatə etmişdir ki, bunlardan biri də vətəndaşların siyasi partiyalar və ictimai təşkilatlar vasitəsilə dövlət idarəçiliyində fəal və birbaşa iştirak edə bilməsidir. [5]

A.Quliyevin “Qeyri-hökumət təşkilatlarının ictimai-siyasi sistemdə yeri: milli və beynəlxalq təcrübə”[6] adlı dissertasiya işi vətəndaş cəmiyyətinin həlledici hissəsi olan QHT-lərin inkişaf dinamikasını, eləcə də təşkilatın strukturunu və gələcəyini əhatə edir. O, müasir Azərbaycan ictimai-siyasi fikir tarixində QHT institutlarının mövqeyi və funksiyası araşdırılmış, mövzunun qlobal təcrübə səviyyəsində hərtərəfli təhlilini aparmışdır.

Tədqiqat dövrümüzə aid olmasa da, problemə yaxınlığı baxımın-

---

[3] Bağırov, Ş.X. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri. siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təq. ed. dis.: AMEA, Fəls. və Siyasi-Hüquqi Tədqiqatlar İn-tu. - B., 2007. - 165 s.

[4] Məmmədzadə İ. Vətəndaş cəmiyyəti və milli ideologiya, Azərbaycanda siyasi proseslərin fəlsəfəsi / İ.Məmmədzadə. Elm, - Bakı: - 1995. - 156 s.

[5] Mirzəzadə, A. Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri / A.Mirzəzadə. Azərbaycan, - Bakı: - 2001. - 170 s.

[6] Quliyev, A.Ə. Qeyri-hökumət təşkilatlarının ictimai-siyasi sistemdə yeri: milli və beynəlxalq təcrübə / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı / - Bakı, 2013. - 28 s.

dan M.Həsənovun “Azərbaycan Resplikasında demokratiyanın qərarlaşması və inkişafında çoxpartiyalılığin rolu”[7] mövzusunda dissertasiyası diqqəti çəkir. Ölkənin demokratik təkamülü, vətəndaş cəmiyyətinin yaranması, siyasi plüralizm, söz və ifadə azadlığı müəllifin dissertasiyada araşdırdığı mövzular olmuşdur.

Tədqiqat mövzumuzun xronoloji baxımdan olmasa da, dövlətçiliyin möhkəmləndirilməsinə aid müəyyən məsələlərin verildiyi N.Abbaszadənin dissertasiyasının adını çəkmək istərdik.[8] Müəllifin tədqiqatındakı bəzi məqamlara nəzər salsaq da, ancaq qeyd etməliyik ki, dissertasiya tədqiqatının əhatə etdiyi 2003-2018-ci illərdə ictimai-siyasi proseslərdən yalnız ötəri bəhs edilmişdir.

Bəhs etdiyimiz, habelə daha bir neçə dissertasiyalar müəyyən qədər araşdırılan məsələlər baxımından diqqəti cəlb edir.[9] Şübhəsiz ki, iddiaçının tədqiqatı həm əhatə etdiyi dövr, həm də təhlil edilən sahələr və məqsədlərin fərqli olması baxımından qeyd etdiyimiz prosesləri yaxından izləməyə lüzum yaratmamışdır.

Tədqiq edilən problemin bəzi aspektləri Rusiya alimlərinin də diqqətindən yayınmamışdır.[10]

Y.Reznik cəmiyyətinin sosioloji təhlilinə vətəndaş cəmiyyətinin fəlsəfi inkişaf aspektində şərhinə cəhd etmişdir.[11] V.Vityuk vətəndaş

---

[7] Həsənov, Mehman. Azərbaycan Respublikasında demokratiyanın qərarlaşması və inkişafında çoxpartiyalılığin rolu: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2013. -28 s.

[8] Abbaszadə, N.M. Azərbaycan milli dövlətçilik tarixinin yeni inkişaf mərhələsi (2003-2017-ci illər) / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / Bakı, 2022. - 26 s.

[9] Əlirzayeva, F.M. Azərbaycan Respublikasında dövlət idarəçiliyinin innovativ inkişafının səciyyəvi xüsusiyyətləri / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı / Bakı – 2023, 26 s.; Məmmədli, N.N. Müasir şəraitdə vətəndaş cəmiyyətinin formalaşmasında siyasi institutların yeri və rolu / fəlsəfə üzrə elmlər doktoru dis. avtoreferatı. / - Bakı, - 2024. - 24 s.; Ramazanova, S.N. Azərbaycan qadını ailədə və ictimai həyatda (gender münasibətlərinə etnoqrafik baxış): / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2024. - 35 s.

[10] Канунников, А.А. Гражданское общество в условиях европейского интеграционного процесса: / дис. доктора политических наук. / - Москва, 2017. - 460 с.; Маммадов, М.М. Особенности модернизации постсоветских политических режимов: / дис. на соискание ученой степени кандидата политических наук. / М., - 2017. - 196 с.

[11] Резник, Ю.М. Гражданское общество как обьект социологического анализа: / автореферат дис. Кандидата философских наук. / -М., 1990. - 21 с.

cəmiyyətinin formalaşması məsələlərini təhlil etmişdir. [12] V.Xorosun vətəndaş cəmiyyətinə ümumi yanaşmaları nəzərdən keçirən əsəri də maraq doğurur.[13]

Mövzu ilə əlaqəli Türkiyə alimlərinin də bir çox araşdırmalarına rast gəlmək mümkündür. Belə ki, İ.Doğan "Liberal və totalitar düşüncə ənənəsində vətəndaş cəmiyyəti" adlı kitabında vətəndaş cəmiyyətini azad və bərabərhüquqlu vətəndaşların bazar və demokratik hüquqi dövlətçilik şəraitində dövlətin köməkliyi ilə həll edilməyən qarşılıqlı əlaqələrin çoxcəhətliliyi kimi vurğulayır. [14]

"Vətəndaş cəmiyyəti və dövlət" adlı əsərində vətəndaş cəmiyyəti ilə siyasətin əlaqəsini problematikləşdirən Gökhan Tuncel vətəndaş cəmiyyəti arasındakı əlaqəni araşdırır. [15]

Ö.Çahanın müəllifi olduğu "Vətəndaş cəmiyyəti və dövlət" kitabında[16] vətəndaş cəmiyyətinin təşəkkül və xüsusiyyətlərini, vətəndaş cəmiyyətinə dair klassik və müasir konsepsiyaları araşdırmışdır. Necdet Aksoy "Vətəndaş cəmiyyəti və təzyiq qrupları" adlanan kitabında[17] vətəndaş cəmiyyəti münaqişələrinin həllinin sosial texnologiyasını açıb göstərmişdir.

Bundan başqa 2016-2020-ci illərdə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş vermiş proseslərin gedişi, onların nəticələrinin təhlil edildiyi əsərlər, müəllif yazıları,[18] ən çox da dövlət başçısının fərmanları, sərəncamları, qanunlar, digər rəsmi sənədlər və məqalələrin də tədqiqatımız üçün əhəmiyyətini qeyd etməliyik.[19]

---

[12] Витюк В.В. Становление идеи гражданского общества и ее историческая / В.Витюк М.: Юнити, - 1995. - 91 с.

[13] Хорос, В. Гражданское общество: как оно формируется (и сформируется ли) в постсоветской России // - М.: МЭИМО, 1997. №5, - с.90-96.

[14] Doğan İlyas. Sivil Toplum Özgürlükçü ve Totaliter Düşünce Geleneğinde / İ.Doğan. Alfa yayınları. - 2003. - 307 s.

[15] Tuncel G. Sivil toplum ve devlet / G.Tuncel. Bilsam yayınları, - 2011. - 352 s.

[16] Çahan Ö. Sivil toplum ve devlet / Ö.Çahan. Orion. Kitab evi ders kitaplari. - 2016. - 350 s.

[17] Aksoy, N. Sivil toplum ve baskı grupları / N.Aksoy. Kaknüs yayınları, - 2008. - 270 s.

[18] Azərbaycan Prokurorluğu 100 illiyini yeni uğur və nailiyyətlərlə qeyd edir // Azərbaycan. - 2018, 28 sentyabr. - s.4.; Azərbaycanda parlamentalizm ənənələri inkişaf etdirilir // Olaylar. – 2017, 25 aprel. - s.15.; Gəncəli N. Gəncənin Avropa gənclər paytaxtı seçilməsi Azərbaycan gənclərinin uğurudur // Palitra. – 2016, - 5 may. - s. 4.; 44 Günlük Qarabağ Müharibəsi: Mülahizə və nəticələr / Bakı: Beynəlxalq münasibətlərinin təhlili mərkəzi, – 2021. - 36 s.

[19] Cəfərli, Rəşad. Azərbaycan idmanında İlham Əliyev missiyası // Azərbaycan. – 2014, 31 iyul. - s. 2.; Həsənov, Ə.M. Möhtəşəm zəfər salnaməsi: Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq

2016-2020-ci illərdə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş vermiş proseslər haqqında Rusiya Federasiyasında çap edilmiş bir çox müəlliflərin əsərlərinin əhəmiyyətini ayrıca qeyd etməliyik. Bunlardan birinin üzərində xüsusi olaraq dayanmaq istərdik. M.Ozerovun monoqrafiyasında İlham Əliyevin hakimiyyətinin ilk günlərindən başlayaraq Azərbaycanın müasir, güclü dövlət olması üçün gördüyü işlərdən ətraflı bəhs edilmişdir.[20]

Dissertasiya mövzumuza müəyyən mənada yaxın olması baxımından fərqlənən, eyni zamanda 2003-cü ildən başlayaraq Azərbaycan Respublikasında sosial – iqtisadi və siyasi həyatda baş vermiş proseslərin gedişi, nəticələri və əhəmiyyətindən bəhs edən məqalələr toplularının materiallarına da diqqət yetirmiş və bu, sonda gəldiyimiz qənaətlərin əsaslı olduğunu bir daha təsdiq etmişdir.[21]

Tədqiqat problemimizin müxtəlif tərəfləri ilə bağlı olan yazılara internet resurslarındakı məqalələrdə yer verildiyini də ayrıca qeyd etmək olar. Biz tədqiqat boyu onların bəzilərinə müraciət etmişik.[22]

Lakin bizim tədqiqat mövzumuz bəhs etdiyimiz kitab, müəllif yazıları və digər növ tədqiqatlarda nə ayrıca, nə də kompleks şəkildə araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini 2016-2020-ci illərdə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş vermiş başlıca proseslər təşkil edir. Tədqiqatın predmetini isə cəmiyyət həyatının müxtəlif sahələrində yaranmış köklü dəyişikliklər və onların nəticələrinin öyrənilməsidir.

---

// Azərbaycan. – 2018, 13 oktyabr. s.1-2.; Кузнецов, Олег. Война за Карабах 2020 года: год спустя / О.Кузнецов. – Баку: - 2021. - 40 с.

[20] Озеров, Михаил. Ильхам Алиев: я верю в мой Азербайджан / М.Озеров. - М.: Бослен, - 2007. - 352 с.

[21] Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri / Elmi Əsərlər toplusu. XX buraxılış. - Bakı – 2020. - 200 s.; Azərbaycan multikulturalizmi. Məqalələr toplusu. 2014-2023 / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. - 275 s.; Zəfər günü. Elektron məqalələr. 2033 s.

[22] Azərbaycanda siyasi mədəniyyətin inkişafında yeni mərhələ başlayıb: [Elekrton resurs] / URL: https://unikal.az/news/9576; Гасанов А. Молодежная политика азербайджанского государства вступила в новый этап. [Elekrton resurs] / URL: http://interfax.az/view/6306

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi tədqiqat illərində ictimai-siyasi həyatın başlıca xüsusiyyətlərinin və nəticələrinin təhlilindən, dünya dövlətlərinin və Azərbaycan Respublikasının təcrübəsinin araşdırılması əsasında bu prosesdə əhalinin müxtəlif kateqoriyalarının, o cümlədən qadınların və gənclərin, siyasi partiya və ictimai təşkilatların rolunun tədqiq edilməsindən ibarətdir. Qarşıya qoyduğumuz məqsədə çatmaq üçün araşdırmalarımızın gedişində yerinə yetirliməli olduğumuz vəzifələri aşağıdakı kimi müəyyən etmişik:

- İctimai-siyasi proseslərin başlıca sahə və istiqamətlərini müəyyən etmək;
- vətəndaş cəmiyyətinin yaranmasına dair intellektual və nəzəri perspektivləri araşdırmaq;
- qadınların dövlətin və cəmiyyətin idarəçiliyindəki iştirakı ilə bağlı problemləri təhlil etmək;
- gənclərin cəmiyyət həyatının müxtəlif sahələrində iştirak səviyyəsinin yüksəldilməsi yolları ilə bağlı nəzəri və praktiki məsələləri təhlil etmək;
- dövlət – müxalifət partiyaları münasibətləri sistemində yeni cəhətlərin cəmiyyətin siyasi həyatına təsiri ilə bağlı məsələləri araşdırmaq;
- siyasi partiyaların vətəndaş cəmiyyətinin inkişafına təsir mexanizmləri aydınlaşdırmaq;
- Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı strateji yanaşmasının əsas prinsiplərini müəyyən etmək;
- 44 günlük Vətən Müharibəsi boyu vətəndaş cəmiyyətində yaranmış həmrəyliyin dövlətimizin beynəlxalq nüfuzunun artmasına təsiri ilə bağlı məsələləri araşdırmaq.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Tədqiqatın mənbəşünaslıq bazası. Dissertasiyanın hazırlanmasında demokratik siyasi rejimə, vətəndaş cəmiyyətinə, onların qarşılıqlı əlaqəsinə, vətəndaş cəmiyyətinin formalaşması, inkişafı və fəaliyyətinə, onun dövlətlə qarşılıqlı fəaliyyətinə aid xarici və yerli nəşrlərdən istifadə edilmişdir. Bu nəşrlərdən aşağıdakılar əsas mənbə rolunu oynamışdır: demokratik siyasi rejim və vətəndaş cəmiyyəti ilə bağlı xarici ölkə tədqiqatçılarının və yer-

li alimlərin əsərləri və məqalələri, Azərbaycan Respublikasının Konstitusiyası, Ümummilli lider Heydər Əliyevin nitq və çıxışlarının toplandığı çoxsaylı kitablar, müasir dövrdə ictimai təşkilatların, eləcə də, vətəndaş cəmiyyətinin fəaliyyətinin, hüquqi dövlət quruculuğunun daha da təkmilləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin məqsədyönlü siyasətindən bəhs edən nəşrlər.

**Tədqiqatın metodları.** Müasir cəmiyyətin ictimai-siyasi həyatı kimi mürəkkəb problemin öyrənilməsində sistemli və sinergetik yanaşma metodları mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın aparılmasında xüsusi tədqiqat metodları olan təhlil, sintez, induksiya, deduksiya, sistemli, struktur-funksional, müqayisəli-tarixi təhlil metodları, habelə siyasi təhlil və proqnozlaşdırma kimi ümumi məntiqi üsullardan istifadə edilmişdir. Bu seçimdə məqsədimiz təhlillərimizin və çıxardığımız nəticələrin elmiliyinə nail olmaqdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

- Müxtəlif dövlət və ictimai institutlar ictimai-siyasi mövcudluğun ən fundamental proseslərinin kulminasiya nöqtəsi kimi görünən çoxtərəfli vətəndaş cəmiyyətinin yaradılması prosesində həlledici rol oynaması.
- Gender bərabərliyi məsələsi həll olunduqca dövlət idarəçiliyinin bütün səviyyələrində çalışan qadınların sayının artması, gənclərin sosial və dövlət idarəçiliyinə getdikcə daha çox cəlb olunması ilə siyasi və sosial proseslərin mahiyyətinə yeni istiqamət verilməsi.
- Vətəndaş cəmiyyətinin inkişafının təməl daşı olan qeyri-hökumət təşkilatlarının cəmiyyəti narahat edən problemlərin həlli istiqamətində hökumətə müvafiq tədbirlər görməkdə köməklik göstərməsi.
- Vətəndaş cəmiyyətinin və onun təsisatlarının yaranmasına, fəaliyyətinin genişlənməsinə dövlət tərəfindən dəstək verilməsinin əhəmiyyəti.
- Siyasi partiyaların vətəndaş cəmiyyətinin necə formalaşmasına, böyüməsinə, dövlətlə vətəndaş cəmiyyətinin bir-biri ilə qarşılıqlı əlaqəsinə təsir göstərməsi.
- Azərbaycanın vətəndaş cəmiyyətinin yüksəlişində mühüm qüvvəyə çevrilən, dövlətin beynəlxalq və mədəni əlaqələrinin inkişafında əhəmiyyətli rol oynayan qeyri-hökumət təşkilatlarının məqsədlərinin və fəaliyyət istiqamətlərinin nəzərdən keçirilməsi.

- Vətəndaş həmrəyliyinin Azərbaycanın ərazi bütövlüyünün qorunması, xalqımızın xaricdə ədalətli mövqelərinin dəstəklənməsi, Vətən müharibəsində xalqımızın qazandığı tarixi qələbəyə xüsusi töhfə vermək üçün tətbiq edilən hərtərəfli strategiyanın tərkib hissəsi kimi əhəmiyyətini artırmasının nəzərdən keçirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın əhatə etdiyi illərdə ictimai-siyasi proseslərin gedişi və nəticələrinin dövlətimizin demokratik dəyərlərin gücləndirilməsi yolu ilə daha da irəliləməsində, vətəndaş cəmiyyətinin formalaşmasında rolu ətraflı şəkildə tədqiq edilmişdir.

Apardığımız təhlil prosesində gəldiyimiz əsas qənaətlər bunlardır:

- dövlətimizin sosial-iqtisadi inkişaf ideyasının formalaşmasına və tətbiqinə ictimai-siyasi proseslərin necə təsir etdiyi araşdırılmış, onun formaları təhlil edilmiş və ümumiləşdirilmişdir;
- QHT şəbəkəsi vətəndaş cəmiyyətinin təkmilləşdirilməsi sistemində unikal və zəruri elementi kimi müəyyən edilmişdir;
- Azərbaycanın hüquqi - demokratik siyasi sistemə keçidi çərçivəsində hüquqi dəyişikliklərin vətəndaş cəmiyyətinin inkişafına töhfəsi araşdırılmışdır;
- Bu sahədə mövcud siyasətin istiqamətləri, o cümlədən qüdrətli və güclü Azərbaycan dövlətinin regionun lider dövlətinə çevrilməsi və daha da inkişaf etdirilməsi ilə bağlı Prezident İlham Əliyevin strateji kursunun nailiyyətləri arqumentli şəkildə təqdim olunmuşdur;
- Azərbaycan Respublikasında ictimai-siyasi proseslərin müasir mərhələsinin ilkin xüsusiyyətləri açıqlanmış, bu prosesin keçdiyi yol və meyllər müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:**

Dissertasiyanın əsas müddəaları və nəticələrindən aşağıdakı istiqamətlərdə istifadə edilməsi faydalı olardı:

- mövzu ilə bağlı gələcək tədqiqat işlərinin aparılmasında, elmi-praktiki konfranslar keçirilməsində;
- ali məktəblərin müvafiq fakültələrində Vətən tarixi, beynəlxalq münasibətlər və siyasi elm üzrə xüsusi kursların tədrisində, mühazirələrin oxunmasında və seminarların keçirilməsində, dərsliklər və dərs vəsaitlərinin hazırlanmasında.

**Dissertasiyanın aprobasiyası.** Mövzunun tədqiqi prosesində müəllifin əldə etdiyi əsas qənaətlər respublika və xarici mətbuatda nəşr

etdirdiyi məqalələrində əksini tapmaqla elmi ictimaiyyətə təqdim edilmişdir. Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin "Azərbaycan və Şərqi Avropa xalqları tarixi" kafedrasında yerinə yetirilmiş, ilkin müzakirədə aprobasiyadan keçmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, doqquz yarımfəsli əhatə edən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Sumqayıt Dövlət Universiteti.

**Dissertasiyanın ümumi həcmi.** 128 səhifə və 207047 çap işarəsidir.

**Struktur bölmələrinin həcmi:** Giriş - 18451, I fəsil - 61751, II fəsil - 58922, III fəsil - 55541, Nəticə - 12382 çap işarəsindən ibarətdir.

## II.DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın işlənmə dərəcəsi, məqsəd və vəzifələri nəzərə çatdırılmış, tədqiqatın nəzəri və metodoloji əsasları, elmi yeniliyi və elmi-praktik əhəmiyyəti şərh edilmişdir.

Dissertasiyanın ilk fəsli **"Hüquqı demokratık ıslahatların genışlənməsı və ıctımaı-sıyası həyata təsırı"** adlanır və 3 yarımfəsildən ibarətdir. **"Azərbaycan Respublikasının inkişaf strategiyasının əsas istiqamətləri"** adlı ilk yarımfəsildə yığcam formada dövlət müstəqilliyimizin bərpasından sonra müasir respublikanın keçdiyi sosial-iqtisadi inkişaf yoluna nəzər salınmışdır.

2016-2020-ci illərdə Azərbaycanda dövlət siyasətinin əsas istiqaməti şəffaf ictimai əlaqələr sisteminin və demokratik cəmiyyətin yaradılması olmuşdur. Siyasi plüralizm ölkənin sosial-iqtisadi tərəqqisi üçün ilkin şərt kimi onu əvəz etdi.

Azərbaycan Respublikasının Prezidenti 2016–2020-ci illər üçün "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını açıqlamışdır. Bu ideya respublikada gedən ictimai-siyasi proseslərin

istiqamətinə və xarakterinə böyük təsir göstərmişdir.[23] Xalqımızın yeni inkişaf mərhələsinə qədəm qoyması belə bir konsepsiyanın hazırlanmasını zəruri etmişdir. Hazırda biz məmnunluqla deyə bilərik ki, Konsepsiyada nəzərdə tutulan məqsədlər tam yerinə yetirilmişdir.

2016-2020-ci illər ərzində ölkənin regionlarında infrastrukturun əlçatanlığının yaxşılaşdırılması, informasiya texnologiyalarından istifadənin artması, hər bir regionun unikal rəqabət üstünlüklərini nəzərə alan yeni regional inkişaf mərkəzlərinin, turizm zonalarının, ərazi prioritet iqtisadi sahələrdə istehsal klasterləri və regionların sosial-iqtisadi inkişafının sürətləndirilmişdir.[24]

"2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn vəzifələrin müəyyən hissəsinin artıq həyata keçirilməsi gənclərin sağlam və fəal olmasını təşviq etməyə, onların idmanla məşğul olmaq imkanlarını maksimum dərəcədə artırmağa mühüm kömək göstərmişdir.[25]

Azərbaycan Respublikasının inkişaf planının əsas prinsipləri baxımından ən aktual problemlərdən biri vətəndaş cəmiyyətinin inkişafıdır. Bu günün reallığı ondan ibarətdir ki, Azərbaycanın sürətli sosial-iqtisadi yüksəlişi və milli maraqların müdafiəsi demokratiyanın daha da inkişaf etdirilməsi, dövlətlə vətəndaş cəmiyyəti institutları arasında əlaqələrin müasirləşdirilməsi, qeyri-hökumət təşkilatlarının fəaliyyətinin səmərəsinin artırılması əsasında mümkündür.

İlk fəslin ikinci yarımfəsli "**Cəmiyyət həyatının demokratikləşdirilməsində hüquqi islahatların rolu"** adlanır. Bildirilir ki, 2003-2020-ci illərdə dövlətçiliyimizin yeni inkişaf mərhələsinin məzmununda əsas fərqlərdən biri hüquqi demokratik islahatların intensiv xarakter alması və dövlət quruculuğunun bütün sahələrini əhatə etməsidir. Bu baxımdan 2016-2020-ci illər xüsusi əhəmiyyət kəsb edir. 2016-

---

[23] "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası: [Elekrton resurs] / URL:http://agdam-ih.gov.az/az/azerbaycan-2020-geleceye-baxis-inkisaf-konsepsiyasi.html

[24] Abdullyeva, F. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası: yeni hədəflərə çağırış // Mədəniyyət. - 2014, 4 iyul. - s.5.

[25] "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan, 2016, 27 yanvar. - s.1.

cı ildən Azərbaycanda hüquqi və demokratik islahatlar cəmiyyətin müxtəlif sahələrində müxtəlif problemlərin həm fərdi, həm də tam şəkildə həllinə yönəlmişdir.

İlham Əliyev hüquqi-demokratik islahatların həyata keçirilməsi zamanı bu məqamı xüsusilə vurğulamışdır ki, ölkədə islahatlar həm siyasi, həm də iqtisadi sahədə cəsarətlə aparılır. Dövlət başçısının mövqeyi tam əsaslandırılır ki, *"siyasi və iqtisadi islahatlar, iqtisadi artım və demokratikləşmə prosesləri paralel olaraq, bir-birini tamamlayaraq aparılmalıdır. Əks halda, iqtisadi vəziyyət yaxşılaşmasa, iqtisadi planlarımız həyata keçirilməsə, təbii ki, Azərbaycanda tam demokratik cəmiyyətin yaradılmasından söhbət gedə bilməz".*[26]

2016-2020-ci illərdə Azərbaycan dövlətinin təşəbbüsü və onun liderinin rəhbərliyi ilə həyata keçirilən ardıcıl hüquqi demokratik islahatlar nəticəsində demokratik dəyərlər və dövlət quruculuğu sahəsində dövlətimizin imkanlarının yetərincə olması ona gətirib çıxarmışdır ki, dövlətimizin adı belə təsir gücünə malik olan dövlətlərin adları ilə bərabər səviyyədədir.

Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin inkişafına dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi səmərəli nəticələr vermişdir.[27]

2016-2020-ci illərdə İlham Əliyevin dövlətçiliyin möhkəmləndirilməsi siyasətinin ən mühüm nəticəsi bugünkü yüksək inkişaf səviyyəsinə çatdırılması, siyasi və iqtisadi sabitliyin təmin edilməsi və qorunub saxlanılmasıdır.

Milli dövlətçiliyimizin inkişafının 2016-2020-ci illəri əhatə edən mərhələsində dövlət quruculuğunun etibarlı və tam yetkin, ideoloji, siyasi, iqtisadi və hüquqi əsasları deməyə əsas verir ki, dövlətimizin və xalqımızın əldə etdiyi inkişaf səviyyəsi, tədqiqat illərində əldə edilmiş

[26] Həsənov, Ə.M. Möhtəşəm zəfər salnaməsi: Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq // Azərbaycan. - 2018, 13 oktyabr. s.1.

[27] Açıq Hökumətin inkişafına dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının təsdiq edilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. - 2016, 28 aprel. - s.1.

nəticələri də nəzərə alınmaqla, yaxın gələcəkdə Azərbaycanı dünyanın ən demokratik, daha sivil və yüksək inkişaf etmiş dövlətləri sırasında öncül olmasını təmin edəcəkdir.

İlk fəslin "**Çoxpartiyalılıq sisteminin ictimai-siyasi fəallığın artmasına təsiri**" adlı son yarımfəslində qeyd edilir ki, Azərbaycan Respublikasında bütün siyasi partiyalar prezident, parlament və bələdiyyə seçkilərində iştirak etmək üçün sərbəst mübarizə aparırlar.

Heç şübhəsizdir ki, 2016-2020-ci illərin hər birində siyasi partiyaların sərbəst fəaliyyəti hər bir sosial təbəqənin, qrupun məqsəd və istəklərinin əksi baxımından olduqca əhəmiyyətli olmuşdur.

Azərbaycanda 2020-ci ildə Milli Məclisə seçki kampaniyası vətəndaşların, o cümlədən siyasi partiyaların fəallığı şəraitində keçmişdir. Seçki prosesinin böyük sayda müşahidəçi tərəfindən izlənməsi Milli Məclisə seçkilərin geniş ictimaiyyətin maraq dairəsində olduğunu göstərirdi. [28]

Bu illərdə siyasi partiyaların siyasi həyatda iştirakının gücləndirilməsi məsələləri bir qayda olaraq dövlətin siyasi xəttinin mühüm istiqamətlərindən biri olmuş və məqsədə nail olunmasına xidmət edən siyasi islahatlar kursu dəyişməz qalmışdır. İlham Əliyev demişdir ki, *"bildiyiniz kimi, islahatların yeni mərhələsi 2018-ci ilin Prezident seçkilərindən sonra başlandı. Bu islahatları mən andiçmə mərasimində, bax, bu salonda bəyan etmişdim. Biz onları ardıcıl olaraq icra edirik və bu, həyatda öz əksini tapır. Bir də onu göstərir ki, həmişə olduğu kimi, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur*". [29]

Beləliklə, apardığımız təhlillər göstərdi ki, siyasi partiyalar, müxtəlif cəmiyyətlər və ictimai birliklər, cəmiyyətin siyasi sisteminin ünsürləri, siyasi fəaliyyətin subyektləri kimi ölkənin siyasi həyatında iştirak dərəcələrini xeyli artırmışlar.

Dissertasiyanın ikinci fəsli **"Ölkəniin ictımai-sıyasi həyatında azərbaycançılıq ideologiyasının güclənməsi. Gender bərabərliyi"**

---

[28] Azərbaycan Respublikası növbədənkənar parlament seçkiləri. 9 fevral 2020. DTİHB Seçki Müşahidə Missiyası.Yekun Hesabat
// https://www.osce.org/files/f/documents/b/d/463506.pdf

[29] Əliyev. İ. İnkişaf – məqsədimizdir. Yüz birinci kitab. fevral 2020 - mart 2020. / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2020. - s.277.

adlanır və 3 yarımfəsildən ibarətdir. Fəslin "**Azərbaycançılıq ideologiyasının gücləndirilməsi və ictimai-siyasi fəallığın artması**" adlı ilk yarımfəslində göstərilir ki, dövlətlə cəmiyyət arasında uçurum o zaman yaranır ki, dövlətin vahid ideologiyası fərdin maraqlarına uyğun olmur. Bir müddət, hətta totalitar hökumətlər demokratiyaya keçdikdə belə, insanların əxlaq və mənəviyyat kimi əsas ictimai ideallar haqqında təsəvvürləri dəyişir. Bunu Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələr göstərmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq konsepsiyasının intellektual ideallarını və rəhbər prinsiplərini səmərəli şəkildə inkişaf etdirərək qoruyub saxlamışdır. 2003-cü ildən başlayaraq azərbaycançılıq məfkurəsinin inkişafında İlham Əliyev mərhələsi 2016-2020-ci illər arasında inamla, böyük enerji ilə və yüksəlişlə davam edirdi.

2016-cı il iyunun 3-də Bakıda 49 ölkədən 500-dən çox diaspor nümayəndəsini və qonaqları bir araya gətirən Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev *"İlk növbədə əlbəttə, biz istəyirik ki, dünyada yaşayan azərbaycanlılar öz tarixi Vətənləri ilə əlaqələri heç vaxt kəsməsinlər. Daim əlaqədə olsunlar, Azərbaycan ilə bağlı olsunlar"*[30], deməklə onların ictimai-siyasi həyatda aktiv rol oynamalarını istəmişdi. Dövlət başçısına görə diaspor təşkilatları ilə səfirliklər arasında möhkəm əlaqələr olmalıdır və bu əlaqələr gücləndirilməlidir..

Qeyd edək ki, 2016-2020-ci illərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olan Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində bəşəriyyətin ən böyük faciələrindən biri olan Xocalı Soyqırımı haqqında maarifləndirmə işlərinin aparılması məqsədilə Heydər Əliyev Fondu metodik və davamlı tədbirlər həyata keçirmişdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə artıq bir sıra ölkələrdə "Qarabağ" kimi tanınan Azərbaycan məktəbləri fəaliyyət göstərməkdədir. [31]

Tədqiqatın əhatə etdiyi illərdə dövlətimizin Azərbaycan diaspo-

---

[30] Əliyev İlham. İnkişaf məqsədimizdir. Yetmiş dördüncü kitab. may 2016 - iyul 2016 / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2018. - s.176-177.

[31] Azərbaycançılıq ideyasını, həmrəyliyi və milli maraqları hər zaman uca tutan görkəmli dövlət xadimi: [Elekrton resurs] / URL: https://azerbaijan.az/news/2151

runun daha yaxşı təşkilatlanması istiqamətində gördüyü işlər nəticəsində soydaşlarımızın öz tarixi vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi, azərbaycançılıq məfkurəsinin, milli birliyin təbliği, millətin mənafeyinin və mənəvi prinsiplərinin müdafiəsinin əsası qoyulmuşdur. Bu təşəbbüslər də ölkəmizdə dövlət siyasətinin formalaşmasında böyük rol oynamışdır.

Bu fəslin "**İctimai-siyasi fəallığın artmasında gender bərabərliyinin təmin olunmasının əhəmiyyəti**" adlı ikinci yarımfəslində əvvəlcə qeyd edilir ki, yaşadığımız günlərdə, hərtərəfli inkişafı artırmaq, insanları layiqli rifaha çatdırmaq üçün vacib siyasi - iqtisadi qərarların qəbulu, həyata keçirilməsi prosesində kişi və qadınların bərabər təmsilçiliyini təmin etmək vəzifəsi aktuallıq kəsb edir.

Gender bərabərliyində Azərbaycan Respublikasının yararlandığı beynəlxalq təcrübənin bəzi xüsusiyyətləri də var. Müxtəlif dövlətlərin parlamentlərində qadınların yüksək səviyyədə təmsil olunması eyni vəziyyətin mövcud olması demək deyil.

Son 20 ildə Azərbaycan Respublikasının Prezident İlham Əliyevin rəhbərliyi ilə qadın problemlərinin həlli sahəsində 1993-cü ildən bəri görülmüş işlərin davamı olaraq 2016-2020-ci illərdə yerli idarəçilik strukturları tərəfindən gender bərabərliyinin təmin edilməsi üzrə aparılan işlər yeni yüksəliş mərhələsinə qədəm qoymuşdur. 2019-cu ildə yerli özünüidarə orqanlarına seçilmiş kişilərin sayı 61 faiz, qadınların sayı isə 39 faiz olmuşdur. 1 yanvar 2021-ci ilin tarixinə olan məlumata əsasən bələdiyyə qulluğunda çalışan 6000 nəfər işçinin 1700 nəfərini qadınlar, 4300 nəfərini kişilər təşkil etmişdir. [32]

Bu məsələdən danışarkən belə bir cəhəti xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva əvvəlki illərdə olduğu kimi tədqiqat illərində də bir çox ictimai-siyasi xadimlərə nümunə olacaq işlər görmüşdür. Azərbaycan mədəniyyətinin, musiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınmasında Mehriban xanım Əliyevanın rolu danılmazdır. Məhz bir çox ölkələrin birinci xanımları

[32] Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin çıxışı. Azərbaycan Respublikasının Milli Məclisi. 27 dekabr 2021-ci il. /

onun fəaliyyətindən yararlanır, təcrübəsindən istifadə edirlər. [33]

Beləliklə, apardığımız təhlillər göstərdi ki, qadınların siyasi partiyalara və ümumilikdə siyasətə cəlb olunmasının artırılması 2016-2020-ci illərdə ictimai-siyasi həyatdakı uğurlarımızın ən mühümlərindən biri olmuşdur.

Dissertasiyanın ikinci fəslinin "**Azərbaycan Respublikasında ictimai-siyasi həyatda gənclərin rolu**" sonuncu yarımfəslində bildirilir ki, hər bir xalqın həyatında gənclər və gənclər hərəkatı sosial-iqtisadi münasibətlərin qurulmasında mühüm rol oynayır.

Tədqiqat illərində Azərbaycan Respublikasında gənclər siyasəti sahəsində mövcud vəziyyət bir sıra əhəmiyyətli mühakimələr söyləməyə imkan verir.

İlham Əliyev demişdir: *"Gənclər cəmiyyətimizin fəal üzvləri kimi, ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar".* [34]

Görülmüş işlərin başlıca yekunlarından biri respublikada gənclər təşkilatlarının formalaşması və fəaliyyəti üçün lazımi iqtisadi, hüquqi və təşkilati imkanlar yaradılmasıdır. [35]

Dövlət qurumlarına işə qəbul edilənlərin 60%-dən çoxu gənclərdir. Bələdiyyə üzvlərinin 28 faizini, yəni 4303 nəfərini gənclər təşkil edir. Onlardan 326 nəfəri bələdiyyə sədridir. Azərbaycanın 11 gənclər təşkilatı beynəlxalq təşkilatlara üzv qəbul olunmuşdur. [36]

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2015-2025-ci illər üçün gənclərin inkişaf strategiyasının təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdır.[37] Bu proqram uzun bir dövrü əhatə

---

[33] Azərbaycana şərəfli xidmətin mükəmməl örnəyi // Azərbaycan. 25 avqust 2024. s.7.

[34] Əliyev İlham. İnkişaf məqsədimizdir. Yetmiş ikinci kitab. dekabr 2015 – fevral 2016 / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2018. - s.200.

[35] Гасанов А. Молодежная политика азербайджанского государства вступила в новый этап. [Elekrton resurs] / URL: http://interfax.az/view/6306

[36] Сеидзаде, Мирагиль. Молодежная политика-составная часть государственной политики Азербайджанской Республики: особенности и основные направления // Право и политологи, - 2016. - № 34, - с.48-52. с.51.

[37] 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 26 yanvar 2015-ci il // Azərbaycan. - 2015, 27 yanvar. - s. 1.

edir və gənclər siyasətinin kifayət qədər böyük müddət ərzində planlaşdırıla biləcəyini göstərir.

Digər bir dövlət sənədi "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli sərəncamıdır. Burada idmanın müxtəlif sahələrində gənclərin fəal iştirakının təmin edilməsi üçün konkret vəzifələr irəli sürülərək bildirilmişdir ki, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin.[38]

Azərbaycan xalqı dəfələrlə dövlətimizin başçısının idmançılarla görüşlərində, dialoqlarında onların uğurlarını, problemlərini ətraflı bildiyinin şahidi olmuşdur.

İlham Əliyev demişdir ki, *bizim idmançılarımızın çox güclü mənəvi dayaqları var. Onlar bizim gənc idmançılar üçün nümunədir, örnəkdir. Əminəm ki, gənc idmançılar burada oturan idmançılardan nümunə götürərək, çalışacaqlar ki, onlar kimi olsunlar.*[39]

Dissertasiyanın "**İctimai-sıyasi fəallıq və vətəndaş həmrəyliyinin formalaşmasında yeni mərhələ**" adlanan sonuncu üçüncü fəsli üç yarımfəsildən ibarətdir. İlk yarımfəsil "**İctimai-siyasi fəallığın artmasının vətəndaş həmrəyliyi cəmiyyəti quruculuğu prosesinə təsiri"** adlanır və burada qeyd edilir ki, İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, eləcə də təşkilatı birbaşa ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan vətəndaş cəmiyyətinin qurulması mühüm mərhələyə qədəm qoymuşdur. Bu mənada 2016-2020-ci illər arasında tamamlanan işlər xüsusilə önə çıxırdı.

İlham Əliyevin dördüncü prezident seçkisi xüsusilə əlamətdar olmuşdur. Konstitusiya islahatından sonra prezidentliyin müddəti yeddi ilədək uzadılmışdır. 2018-ci il 11 apreldə keçirilən dördüncü prezident seçkilərində seçicilər İlham Əliyevə 86,02 faiz səs verərək, onu bu dəfə yeddi il müddətinə prezident seçmişdir. Aprel ayının 18-də

---

[38] "Azərbaycan gəncliyi 2017–2021-ci illərdə" Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. // Azərbaycan. – 2017, 16 sentyabr. s.1.

[39] Əliyev İlham. İnkişaf məqsədimizdir. Səksən birinci kitab. iyun 2017 - avqust 2017. / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2019. - s.178.

keçirilən andiçmə mərasimində İlham Əliyev qarşıda duran yeni hədəflərini müəyyən etmişdir. [40]

Azərbaycan xalqı hər zaman, xüsusi ilə də 2016-2020-ci illərdə ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək öz alternativsiz liderini dəstəkləmişdir. Ölkə Prezidenti İlham Əliyev öz liderlik bacarığı və siyasi iradəsi ilə Ulu öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirərək ölkəmizin hər tərəfli inkişafına öz müsbət töhfələrini vermişdir. Bu bir həqiqətdir ki, ləyaqətli siyasət, kifayət qədər cəsarət və ölkənin gələcəyi üçün aydın strategiya olduqda, müstəqil siyasət yeritmək mümkündür.

Sonuncu fəslin **"Ərazi bütövlüyünün bərpası uğrunda mübarizə və cəmiyyətdə ictimai-siyasi sabitliyin güclənməsi"** adlı ikinci yarımfəslində bildirilir ki, İkinci Qarabağ münaqişəsi 2020-ci il sentyabrın 27-də başlayıb və o vaxtdan 4 ildən artıq vaxt keçir. Azərbaycanı qələbəyə aparacaq 44 günlük yolun başlanğıcı olan bu tarixdə bütün məqamlar mövcuddur.

Dünya güclərinin 28 ildir kağız üzərində saxladığı BMT Təhlükəsizlik Şurasının qərarları Azərbaycan tərəfindən həll olundu. Ədalət, beynəlxalq hüquq kimi anlayışların mövcud olduğu, nailiyyətlərin əldə olunduğu bir daha dünyaya çatdırıldı.

Prezident İlham Əliyevin bütün səlahiyyət müddəti ölkəmizin işğaldan azad olunmasına hazırlıq dövrü kimi qiymətləndirilir. Bu illərdə Azərbaycan münaqişənin həlli üçün güclü hüquqi baza yaratmışdır. Ali Baş Komandan demişdir ki, *"Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq, bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində"*. [41]

Azərbaycan Milli Ordusu 1990-cı illərin əvvəllərində Birinci Qarabağ müharibəsi zamanı Ermənistan ordusunun zəbt etdiyi əraziləri geri almaq və Ermənistanın Azərbaycana hücumunu dayandırmaq üçün sentyabrın 27-də bütün cəbhə boyu əks hücuma keçdi. Beləliklə, sentyabrın 27-də əzəli və tarixi ərazilərimizin işğaldan azad edilməsi

---

[40] Heydərov, Fəttah. Liderlik örnəyi // Azərbaycan. -2018, - 4 may. - s.1.

[41] Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz doqquzuncu kitab. dekabr 2020 - fevral 2021 / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2021. - s.233.

uğrunda 44 günlük döyüş –Vətən Müharibəsi, İkinci Qarabağ müharibəsi və “Dəmir yumruq” əməliyyatı başladı.

Beynəlxalq aləm uşaqdan böyüyə qədər bütün vətəndaşların prezidenti dəstəklədiyinin şahidi oldu, 44 günlük Vətən Müharibəsində düşmənə qalib gəlmək üçün birləşdi. Bütün bunlar, təbii ki, vətəndaşın öz borcunu dərk etdiyini və milli maraqlar uğrunda bir yumruq kimi birləşdiyini nümayiş etdirir.

Erməni təcavüzünə cavab olaraq Milli Ordunun başladığı Vətən Müharibəsi nəticəsində 30 illik Qarabağ həsrətinə cəmi 44 gündə son qoyuldu. Vətənpərvər oğlanlarımızın ermənilərin hücumunu dəf etmələri, sonra isə düşmənə sarsıdıcı zərbələr endirmək üçün əks hücuma keçmələri xalqımızın qələbə əzmini nümayiş etdirdi.

Noyabrın 8-də, 28 illik həsrətdən sonra Qarabağın ürəyi Şuşanın rəşadətli ordumuz tərəfindən işğaldan azad edilməsi İkinci Qarabağ müharibəsində Azərbaycanın ən mühüm qələbələrindən biri oldu. “Tarixi Zəfərimizi 3 minə yaxın şəhidimizin qanı ilə, qazilərimizin və digər cəsur döyüşçülərimizin şücaətləri ilə qazandıq. Bu baxımdan Şuşanın işğaldan azad olunduğu günün Zəfər Günü, İkinci Qarabağ müharibəsinin başlandığı 27 sentyabr tarixinin Anım Günü kimi təsis edilməsi təsadüfi deyil. [42]

İkinci Qarabağ müharibəsi göstərdi ki, gənclərimizə vətənpərvərlik hissinin aşılanması sahəsində də mühüm irəliləyişlər əldə olunmuşdur. Təbii ki, ordu quruculuğunda, ordunun texnologiya ilə təminatında, döyüş şücaətində, peşəkarlıqda, şəxsi heyətin yaşayış şəraitində və ümumilikdə xidmət şəraitində təkmilləşdirmələr aparılmışdı. *“Biz artıq Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin qanını aldıq və qisasımızı döyüş meydanında aldıq. Amma bununla bərabər, Ermənistan dərk etməlidir ki, Azərbaycan bundan sonra da güclənəcək və bu şübhəsizdir. O cümlədən, bizim hərbi gücümüz artacaq”.* [43]

Nəticə olaraq qeyd edək ki, bütövlükdə türk dünyası bizim qələbəmizlə fəxr edir, bu, təkcə xalqımızın qələbəsi deyil. Bizim tərəfimizdən regionda yeni bir reallıq quruldu.

---

[42] Məlikli, Günel. Prezident İlham Əliyev Azərbaycanı yeni zirvələrə aparır // Xalq qəzeti 2021. - 25 dekabr. - s.16.

[43] Əliyev İlham. İnkişaf məqsədimizdir. Yüz on üçüncü kitab. iyun 2021 - avqust 2021 / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2021. - s.35.

Dissertasiyanın **“Vətəndaşların ictimai-siyasi proseslərdə fəallığının artmasında seçkilərin əhəmiyyəti”** adlı sonuncu yarımfəslində bildirilir ki, 2016-2020-ci illərdə Azərbaycan Respublikasında cəmiyyət həyatının bütün sahələrində mühüm uğurlar qazanılmışdır. İctimai-siyasi proseslərdə vətəndaşların iştirakı onların fəallıq dərəcəsinin xeyli artması ilə müşahidə olunmuşdur.

Azərbaycanda növbədənkənar parlament seçkiləri 2020-ci il fevralın 9-da, ölkənin yuxarıdan aşağıya doğru islahatlar prosesinə cəlb olunduğu bir vaxtda keçirilmişdir.

Bu seçkilərin bir neçə fərqli xüsusiyyətlərini də qeyd etmək olar**.** Bu, ölkədə əhalinin bütün təbəqələri tərəfindən seçkilərə marağın xeyli dərəcədə yüksək olduğunu nümayiş etdirdi. Buna görə də 125 birmandatlı seçki dairəsi üzrə 1,3 mindən çox şəxsin namizəd kimi qeydə alınması, yəni bir deputat mandatı üçün ondan çox namizədin, həm də müxtəlif siyasi partiyaların nümayəndələrinin, eyni vaxtda öz namizədliyini irəli sürülmüş vətəndaşların sayının çoxalması da fərqli cəhətlər sırasında olmuşdur. [44]

Eyni zamanda bu seçkilər ölkədəki, ilk olaraq müxalifətçi siyasi partiyalar üçün ötən seçkilərdəki uğursuzluqlarının təhlili əsasında hazırladıqları fəaliyyət platformalarının əhali arasında təbliğ edilməsi baxımından da daha bir fürsət qazanması deməkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *“Hesab edirəm ki, bütövlükdə seçki prosesi həm uğurla keçdi, həm də seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirdi. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qaldı və seçkilərdən sonra müşahidə olunan hadisələr bunu bir daha göstərir*”. [45]

Azərbaycanda son onillikdə keçirilən seçkilər beynəlxalq ictimaiyyət tərəfindən ciddi nəzarət altında olmuşdur. Bu, həm də vətəndaşların ictimai-siyasi proseslərdə fəal iştirakı göstəricilərindən biri olaraq, bu seçkilərə yanaşması, münasibəti və seçkilərdə fəal iştirakı səviyyəsinin yüksəlməsi deməkdir.

**“Nəticə”** hissədə apardığımız təhlillər əsasında Azərbaycanın

---

[44] Дульман Павел. В Азербайджане выбрали новый состав парламента / https://rg.ru/2020/02/09/v-azerbajdzhane-vybrali-novyj-sostav-parlamenta.html

[45] Əliyev. İ. İnkişaf – məqsədimizdir. Yüz birinci kitab. fevral 2020 - mart 2020. / İ. Əliyev. - Bakı: Azərnəşr, - 2020. - s.264.

daha da inkişaf etməsində mühüm nəticələrə gətirib çıxaran ictimai-siyasi proseslərin nəticələri və əhəmiyyəti barədə qənaətlərimizi söyləmiş, eyni zamanda bəzi təklif və tövsiyələrimizi bildirmişik:

- əldə edilmiş uğurların əhəmiyyətini yüksək dəyərləndirməklə eyni vaxtda unutmaq olmaz ki, getdikcə qloballaşan dünyada Azərbaycanın milli və regional təhlükəsizliyinin təmin olunması təkcə yüksək sosial-iqtisadi inkişaf göstəricilərinə nail olmaqla məhdudlaşmayaraq cəmiyyətdə siyasi sabitlikdən də xeyli dərəcədə asılıdr;
- Artıq tədqiqat illərində bir neçə dəfə baş tutmuş siyasi partiya liderləri və təmsilçilərinin iqtidarla görüş və məsləhətləşmələr formasında dialoqunun yeni, daha açıq formaları müəyyən edilib həyata keçirilməlidir;
- Dövlət idarəçilik sistemində hərtərəfli islahatların keçirilməsi prosesində qabaqcıl dünya təcrübəsindən istifadə etmək;
- Dövlətin gənclər siyasətinin yeni hədəflərini müəyyən etmək üçün növbəti proqramların işlənib hazırlanması;
- İdarəçilik sisteminin müxtəlif strukturlarında rəhbərlikdə layiqli gənclərin təmsil olunma səviyyəsini daha da yüksəltmək;
- Gender bərabərliyi siyasətini daha da təkmilləşdirmək, yerli və dövlət idarəçilik strukturlarında, xüsusi olaraq ali idarəetmə orqanlarında qadınların rəhbər vəzifələrə təyin olunması praktikasını daha genişləndirmək;
- işğaldan azad edilmiş ərazilərin bərpasının nəzərdə tutulduğundan da tez başa çatdrılması və məcburi köçkülərin öz yurdlarına qaytarılması üçün əlavə kompleks proqramların qəbul edilməsinə nail olmaq;
- ölkənin müdafiə qabilliyyətini daha da gücləndirməklə ölkəmizin ehtimal edilən təhlükə risklərindən etibarlı şəkildə qorunmasına nail olmaq;
- şəhid ailələrinin və qazilərin sosial təminat səviyyəsini gücləndirmək məqsədi ilə əlavə maliyyə imkanlarının müəyyən edilməsinə nail olmaq, Yaşat fondunun fəaliyyətinə maliyyə dəstəyinin əlavə formalarını reallaşdırmaq;

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1.Azərbaycan Respublikasında çoxpartiyalılıq sisteminin ictimai-siyasi fəallığın artmasına təsiri. SDU Elmi xəbərlər jurnalı. Sosial və humanitar elmlər bölməsi. Sumqayıt. 2023. Cild 19, №3. s.51-55.

2.The Importance Of Legal Reforms In Strengthening Azerbaijan's Statehood (2016–2020). Міністерство освіти і науки Украіни Таврійський Національний Университет імені В.І.Вернадського. Вчені записки Таврійського Національного Университету імені В.І.Вернадського. Украіни імені В.І.Вернадського. Украіни. 2023. №4. с.98-103.

3.Azərbaycan Respublikasında gender bərabərliyi probleminin həllinin ictimai-siyasi fəallığın artmasına təsiri.Tarix və onun problemləri. Bakı. №4. s.141-144.

4.Ərazı bütövlüyümüzün bərpası uğrunda mübarizənin cəmiyyətdə ictımai-siyasi fəallığın güclənməsində əhəmiyyəti.Geostrategiya jurnalı. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. Bakı. 2024. №4 (83). s.109-113.

5.Azərbaycan Respublikasında gənclərin ictimai-siyasi fəallığının yüksəlməsində dövlət siyasəti. Elmi xəbərlər (tarix elmləri üzrə), Gəncə Dövlət Universiteti. Gəncə. 2024. №3. s.93-99.

6.Vətəndaşların ictimai-siyasi proseslərdə fəallığının artmasında seçkilərin əhəmiyyəti.  Tarix və onun problemləri. Bakı. 2024. №3. s.225-229.

7.Hüquqi dövlət quruculuğu prosesində ədliyyə orqanlarında aparılan islahatların rolu. Tezis. Doktorant və gənc tədqiqatçıların XXV Respublika elmi konfransı (Şuşanın 270 illiyinə həsr olunur). Bakı. 22-23 noyabr 2022. s.387-391.

8.Ərazimizin bütövlüyünün bərpası – tarixi ədalətin bərpasidir! Tezis. Sumqayıt Dövlət Universiteti. Qarabağın  tarixi: siyasi, iqtisadi, mədəni aspektlər. Beynəlxalq Elmi konfrans. SDU. Sumqayıt. 17-18 mart 2023. SDU-nun Xəbərləri. №1. s.264-265.

9.44 Günlük Müharibədə qələbəmiz Heydər Əliyevin ordu quruculuğu

siyasətinin nəticəsidir. Tezis. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası. Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur” mövzusunda Respublika Elmi Konfransı. Bakı. 5 may 2023. s.487-492.

10.Azərbaycan Respublikasının İnkişaf Strategiyasının əsas istiqamətləri. Sumqayıt Dövlət Universiteti. Tezis. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Azərbaycanda dövlət müstəqilliyinin bərpası və ölkənin siyasi, sosial-iqtisadi, mədəni inkişafı” mövzusunda Beynəlxalq elmi konfrans. SDU. Sumqayıt. 13-14 aprel 2024. s.196-198.

11.“Əsrin müqaviləsi”nin nəticələrinin ölkənin. İctimai-siyasi həyatına təsiri. Tezis. Əsrin müqaviləsi-Azərbaycan Respublikasının siyasi, sosial-iqtisadi, mədəni inkişaf strategiyasının təməli mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. 19-20 sentyabr 2024-cü il. SDU. Sumqayıt. 2024. S.122-127.

12. 2016-2020-ci illərdə Azərbaycan Respublikasında gənclərin ictimai-siyasi fəallığı haqda. Tezis. Uluslararasi Karadeniz Modern Bilimsel Araştirmalar Kongresi. 23-25 Ağustos 2024. Trabzon. Beynəlxalq Elmi Konfrans. Türkiyə. 2024. s.166.

Dissertasiyanın müdafiəsi 29 oktyabr 2025-ci il saat 12.00-da Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az. 1148. Bakı. Z.Xəlilov küçəsi 33.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29.09. 2025-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.09.2025
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 43500 işarə
Tiraj: 100 nüsxə